Bülleten № 02 / fevral 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

FEVRAL 2013

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT





*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 15 yanvar 2013-cü il tarixində Nazirlər Kabinetinin 2012-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2013-cü ildə qarşıda duran vəzifələrinə həsr olunmuş iclası keçirilmişdir.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV: “İKT sahəsinə verilən diqqəti və əldə edilmiş uğurları nəzərə alaraq, mən 2013-cü ili "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edirəm.”

Prezident çıxışında qeyd etmişdir ki, 2013-cü ildə ölkəmizdə istifadə edilən elektron xidmətlərin sayı artmalı və bu sahədə görülən işlər davam etdirilməlidir. Yaradılan elektron xidmətlər cəmiyyətin bütün sahələrini əhatə etməlidir. Ölkədə şəffaflıq maksimum dərəcədə təmin olunmalı, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Elektron xidmətlərin ölkəmizdə geniş tətbiqi innovasiya və şəffaflığa təkan verən əsas amillərdəndir. Respublikanın inkişafı üçün bu imkanlardan geniş istifadə olunmalıdır. Bu siyasət məqsədyönlü şəkildə davam etdiriləcəkdir.

Çıxışda qeyd edilmişdir ki, gələn ay ilk telekommunikasiya peykimiz orbitə çıxarılacaqdır. Bu tarixi hadisədir. Doğrudan da, Azərbaycan kosmik ölkəyə çevrilir. Ölkəmiz kosmik sənayenin inkişafı ilə məşğuldur. Bir neçə il bundan əvvəl bunu təsəvvür etmək belə çətin idi. Vaxt gələcək və Azərbaycan kosmik ölkələrin sırasına daxil olacaqdır. Biz yaxın günlərdə bu tarixi hadisənin şahidi olacayıq. Azərbaycan üçün bu böyük nailiyyətdir və ölkənin prestijinin artırılmasına, müasir texnologiyaların geniş tətbiqinə xidmət göstərəcəkdir. Biz müasir, güclü dövlət qururuq. Regional müstəvidən çoxdan çıxmışıq və müstəqil Azərbaycan dövlətiyik.

Prezident çıxışının sonunda bəyan etmişdir ki, ölkəmizin müstəqillik dövründə qazandığı böyük nailiyyətlərlə hər bir Azərbaycan vətəndaşı fəxr edə bilər. Onların içərisində süni peykin buraxılması xüsusi yer tutur. Bu böyük rəmzi məna daşıyır və gələcəkdə müasirliyə, inkişafa doğru atılan addımlarımızı sürətləndirəcəkdir. İKT sahəsinə verilən diqqəti və əldə edilmiş uğurları nəzərə alaraq, mən 2013-cü ili "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edirəm. Hesab edirəm ki, ölkəmiz 2013-cü ildə bu sahədə daha da böyük nailiyyətlərə imza atacaqdır.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 15 yanvar 2013-cü il tarixində keçirilən iclasda Rabitə və İnformasiya Texnologiyaları Naziri Əli Abbasov çıxış etmişdir.

Nazir çıxışında 2012-ci ildə nazirlik tərəfindən aparılan işlərin yekun nəticələri haqqında ətraflı məlumat vermişdir. 2012-ci il bütövlükdə ölkəmiz üçün bütün sahələrdə uğurlu olduğu kimi, rabitə və informasiya xidmətləri üzrə artım 15,9 faiz olmuşdur.

İKT sektoru 2004-2013-cü illər üzrə hər üç ildə təxminən iki dəfə genişlənmişdir. 2012-ci ildə isə sektorun artım tempi təxminən 18 faiz olmuşdur. Bu isə ümumdünya orta artım tempindən təxminən 2,5 dəfə yüksəkdir. Son üç ildə isə Azərbaycan MDB ölkələri arasında geniş regionda internet istifadəçilərinin sıxlığına görə liderdir. 2012-ci ildə bu göstərici üzrə artım 65 faizdən təxminən 70 faizə kimi yüksəlmişdir. İnternet xidmətlərinin keyfiyyəti yüksəlmiş, 2011-ci illə müqayisədə xaricə çıxış tutumu 2,2 dəfə artmış, qiymətlər isə təxminən 35 faiz azalmışdır.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dövlət Neft Fondu Azərbaycanda "evlərə optika" modeli üzrə ölkənin bütün yaşayış məntəqələrinə yüksəksürətli genişzolaqlı internet xidmətlərini verən optik şəbəkənin qurulması üzrə layihə hazırlamış və cari ildə layihənin həyata keçirilməsi üçün 103 milyon manat vəsait ayrılmışdır. Layihə üç il müddətində həyata keçiriləcək və yüksək rentabellidir. 2014-cü ildən başlayaraq ümumi dəyərin 30-35 faizi reinvestisiya hesabına ödəniləcəkdir. Əsas hədəf ucqar kəndlər də daxil olmaqla, sürəti 10-100 meqabit-saniyə arasında olan genişzolaqlı internetə çıxışı təmin etmək, istifadəçilərin sayını isə təxminən 85 faizə çatdırmaqdır. Bu o deməkdir ki, 2017-ci ildə inkişaf etmiş ölkələrin səviyyəsinə çata biləcəyik.

**Ötən il “bir pəncərə” prinsipi ilə işləyən vahid elektron hökumət portalı yaradılmış və 2012-ci ilin sentyabr ayında internet vasitəsilə vətəndaşların istifadəsinə verilmişdir. Elektron hökumət portalına 40 hökumət və dövlət qurumu real vaxt rejimində birləşdirilmiş və Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş 417 xidmətdən 158 elektron xidmət artıq portalda yerləşdirilmiş, internetə birbaşa çıxışı olan vətəndaşların istifadəsinə verilmişdir. Elektron imza sisteminin kompüter və mobil telefon versiyası işə salınmış və 2012-ci ildə təxminən 5,5 mindən çox dövlət məmuru və vətəndaşına elektron imza verilmişdir.**

Cənab nazir çıxışının sonunda qeyd etmişdir ki, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən hədəfimiz İKT-nin illik artımını təxminən 18-20 faiz ətrafında saxlamaqla, qarşıdakı səkkiz ildə sektorun gəlirlərini 8-9 milyard ABŞ dollarına çatdırmaqdır.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Maliyyə Nazirliyindən Elektron Xidmətlərin genişləndirilməsinə təkan

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, ölkədə elektron xidmətlərin daha da inkişafı, eyni zamanda büdcə təşkilatlarına göstərilən xəzinə xidməti üzrə əməliyyatların çevik, sürətli və müasir tələblərə uyğun idarəolunması məqsədilə əməq haqqı, ezamiyyə, məzuniyyət, təqaüd və s. ödənişlərin həyata keçirilməsi üçün xəzinədarlıq orqanları tərəfindən plastik kartlara köçürülən vəsaitlər üzrə təşkilatlar tərəfindən tərtib edilən müvafiq siyahıların onların MSXM tərəfindən verilən gücləndirilmiş elektron imzası ilə təsdiq olunaraq birbaşa müvafiq banka elektron qaydada çatdırılmasını məqsədə uyğun hesab etmişdir.

Bununla bağlı Agent-Bank rolunda çıxış edən “Kapital Bank” ASC tərəfindən texniki və təşkilati məsələlər üzrə hazırlıq işləri aparılmış və həmin işlər pilot layihə qismində lazımi sınaqlardan keçirilmişdir. Büdcə təşkilatları tərtib etdikləri və bank qurumlarına elektron qaydada çatdırdıqları siyahılarda əks olunan məlumatların dürüstlüyünə qanunvericiliklə nəzərdə tutulmuş qaydada birbaşa məsuliyyət daşıyacaqlar.

Plastik kartlar ilə bağlı bank əməliyyatlarının yuxarıda göstərilən yeni mexanizmin tətbiqi ilə 03.01.2013-cü il tarixindən həyata keçirilməsi və 2013-cü ilin fevral ayının 10-dək başa çatdırılması nəzərdə tutulmuşdur.

---

# “E-gov” elektron hökumət portalında təmsil olunan yeni xidmətlər haqqında

- Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti – “Su təsərrüfatı obyektlərindən suyun götürülməsinə razılığın verilməsi“, “Su təsərrüfatı obyektlərində və onların mühafizə zonalarında yaradılan obyektlərin yerinin razılaşdırılması” xidməti portala inteqrasiya olumuşdur.

- Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın “Müsabiqə və müsahibə nəticələri barədə məlumatların verilməsi” xidməti portala inteqrasiya olunmuşdur.

- Dövlət Sosial Müdafiə Fondunun – “Sığorta olunanlara məlumatların verilməsi”,

- Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən isə – “Lokal danışıqların açıqlaması” elektron xidmətləri hazırlanmışdır.

- Səhiyyə Nazirliyinin Bakı şəhəri Təcili Yardım Stansiyasının "103" dispetçer xidmətinə stasionar telefon şəbəkəsindən daxil olan zənglərin telefon nömrələri və ünvanlarının online təyin olunması məqsədilə, Səhiyyə Nazirliyinin müvafiq informasiya sisteminin Elektron Hökumət portalına inteqrasiya olunaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Stasionar telefonların abunəçi kartotekası üzrə informasiya sistemindən" online sorğu elektron xidməti tətbiq olunmuşdur.

www.e-gov.az

# Mobil ID

## Mobil autentifikasiya və elektron imza sertifikasiya mərkəzi istismara vermişdır.




Son illərdə smartfon bazarında texnoloji artım müşahidə olunmaqdadır. Hazırda smartfonlar kifayət qədər hesablama gücünə malikdirlər və istifadəçilər smartfonlarda mövcud şifrələmə proqramlarından asanlıqla istifadə edə bilərlər.

Mobil İD nə üçün lazımdır və onun istifadə zərurəti haradan yaranır?

Əgər 2016-ci ilə qədər dünyada tendensiyalar haqqında proqnoz hesabatlara baxsaq:

**Forrester hesabatı:**

- Hal hazırda dünyada təxminən 1 milyard smartfon istifadəçi vardır
- 2016 -cı ilə qədər mobil layihərə ayrılan investisiya büdcələri 100% artacaq

**Gartner hesabatı:**

- 2016-ci ilə qədər biznes istifadəçilərinin ən azı 50%-i e-mail və interneti smartfon vasitəsilə istifadə edəcək

Dünyada gedən tendensiyadan geri qalmamaq və vətəndaşların mövcud bütün platformalar üzərindən Elektron Hökumət portalına daxil olma imkanları təmin olunmalıdır.

Mobil cihazlardan internet saytlarına daxil olmaq üçün istifadəçinin eyniləşdirilməsi, internet bağlantısının təhlükəsizliyi və girişin nəzarəti əsas təminat məsələsidir.

Mobil İdentifikasiya (Mobile-İD) və elektron imza mobil telefondan istifadə edərək təhlükəsiz istifadəçi identifikasiyasını aparmağa imkan verən xidmətlərdir. Mobil İD şəxsiyyət vəsiqəsi kimi e-xidmətlərin təhlükəsiz əldə edilməsi və sənədlərin rəqəmsal imzalanması üçün istifadə olunur, lakin üstünlüyü ondadır ki, hər hansı bir kart oxuyucusu olmadan da işləyə bilər.



2013-ci ilin birinci rübündə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən mobil autentifikasiya və elektron imza sertifikatları verəcək sertifikasiya mərkəzi yaradılmışdır. Məqsəd vətəndaşlara və hüquqi şəxslərə mobil autifentikasiya və elektron imza sertifikatlarının təklif olunmasının təmin edilməsidir. Vətəndaşlar veb səhifə vasitəsilə onlayn qeydiyyat formasını doldurub göndərərək və ya Sertifikat Xidmətləri Mərkəzinə müraciaət edərək mobil sertifikatları əldə edə biləcəklər. Autentifikasiya üçün istifadə olunan rəqəmsal sertifikatlar X.509 v3 standartına uyğun olacaq. Sertifikatlar MHM-in Sertifikat Xidmətləri Mərkəzi tərəfindən hazırlanacaq və İOS, Android, Symbian əməliyyat sistemləri ilə işləyən qurğularda (telefon və planşet kompüterlər) yalnız PİN kod / parol vasitəsi ilə istifadə ediləcək. Gizli açar kriptoqrafik imkanlıqlara malik və FİPS 140-2 standartına uyğun olan SİM kartlarında, SDR kartlarda və ya sifrələnmə ilə qorunan açarlar qovluğuna yüklənilərək təhlükəsiz mühitdə saxlanılacaq.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.01.2013 - 31.01.2013-cü il tarixinə "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan elektron xidmətlərin siyahısı:

| № | Qurumun adı | Xidmətin adı | Sayı |
|---|---|---|---|
| 1 | Ədliyyə Nazirliyi | Adın mənası | 1085 |
| 2 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | Lokal danışıqların açıqlaması | 786 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | 636 |
| 4 | Daxili İşlər Nazirliyi | PİN-ə görə fərdi məlumatların axtarışı | 616 |
| 5 | Dövlət Sosial Müdafiə Fondu | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | 483 |
| 6 | Təhsil Nazirliyi | Diplom haqqında məlumatlar | 481 |
| 7 | Dövlət Sosial Müdafiə Fondu | Pensiya kapitalı barədə məlumat | 465 |
| 8 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | Telefon üzrə ətraflı məlumat | 420 |
| 9 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | ADSL-ə qoşulma/imtina | 378 |

## Elektron Hökumət Mərkəzi tərəfindən əhali və hüquqi şəxslərə verilmiş sertifikatların artım dinamikası:

| | Dekabr 2012-cü il | Yanvar 2013-cü il | artım | azalma |
|---|---|---|---|---|
| HÜQUQİ VƏ FİZİKİ ŞƏXSLƏR | 2328 | 2593 | 265 | - |

## "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

| | |
|---|---|
| Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 |
| Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 |
| Dövlət Gömrük Komitəsi | 1 |
| Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 7 |
| Daxili İşlər Nazirliyi | 2 |
| "Bakıelektrikşəbəkə" ASC | 2 |
| Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 |




www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# 31.01.2013-ci il tarixinə qədər Dövlət Hakimiyyəti orqanları tərəfindən Milli Sertifikat Xidmətləri Mərkəzinə edilən müraciətlərin və onlara verilən sertifikatların sayı haqqında

## STATİSTİK MƏLUMAT

| № | Dövlət hakimiyyəti orqanının adı | Verilən sertifikatların sayı | Müraciət edilib və Müqavilə bağlanıb | Müraciət edilib və Müqavilə bağlanıb lakin sertifikat verilməyib (ödəniş olmayıb və ya tələb edilən sənəd çatışmır) | Müraciət edilib və Müqavilə bağlanmayıb | Reyestrə daxil olmaq üçün müraciət olunub | Reyestrə daxil olmaq üçün verilib |
|---|---|---|---|---|---|---|---|
| 1 | Nazirlər Kabineti | - | - | - | 2 | - | - |
| 2 | Daxili İşlər Nazirliyi | 517 | 517 | - | - | - | - |
| 3 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | - | - | - | - | - | 1 |
| 4 | Ədliyyə Nazirliyi | 279 | 279 | - | - | - | - |
| 5 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 204 | 204 | 1 | 1 | - | 1 |
| 6 | Fövqəladə Hallar Nazirliyi | - | - | - | - | - | 1 |
| 7 | Gənclər və İdman Nazirliyi (GPEA Mərkəzi) | 10 | 10 | - | - | - | 1 |
| 8 | Xarici İşlər Nazirliyi | - | - | - | - | - | - |
| 9 | İqtisadi İnkişaf Nazirliyi | 29 | 29 | | | | 1 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 4 | 4 | - | - | - | 1 |
| 11 | Müdafiə Sənayesi Nazirliyi | 36 | 36 | - | - | - | - |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 2 | 32 | - | - | - | 1 |
| 13 | Nəqliyyat Nazirliyi | 17 | 17 | | - | - | 1 |
| 14 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 975 | 1105 | 130 | - | - | - |
| 15 | Sənaye və Energetika Nazirliyi | - | - | - | - | - | 1 |
| 16 | Səhiyyə Nazirliyi | 28 | 28 | - | - | - | 1 |
| 17 | Təhsil Nazirliyi | 44 | 44 | - | - | - | 1 |
| 18 | Vergilər Nazirliyi | 30 | 30 | - | - | - | 1 |
| 19 | Ailə, Qadın və uşaq problemləri üzrə dövlət komitəsi | 18 | 18 | - | | - | 1 |
| 20 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | - | 3 | 3 | - | - | 1 |
| 21 | Əmlak Məsələləri Dövlət Komitəsi | 46 | 46 | 1 | - | - | 1 |
| 22 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - | - | - | - | 1 |
| 23 | Dövlət Şəhərsalma və Arxitektu- ra Komitəsi | 1 | 1 | - | - | - | 1 |
| 24 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin strukturları | 29 | 30 | 1 | - | - | - |
| 25 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | - | - | - | 1 |
| 26 | Dövlət Gömrük Komitəsi | 5 | 5 | - | - | - | 1 |
| 27 | Dövlət statistika Komitəsi | 5 | 5 | - | - | - | 1 |
| 28 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 7 | 7 | | - | - | 1 |
| 29 | Qaçqınların və Məcburi Köçkü nlərin İşləri üzrə Dövlət Komitəsi | 19 | - | - | - | - | 1 |
| 30 | Prezidenti yanında Dövlət Qulluğu Komitəsi | 12 | 12 | - | - | - | - |
| 31 | Dövlət Büdcəsindən Maliyyələşən İcra orqanlar | 432 | 622 | - | - | - | - |
| 32 | Milli Arxiv İdarəsi | - | - | - | - | - | - |
| 33 | Dövlət Sosial Müdafiə Fondu | 339 | 442 | 3 | - | - | - |
| 34 | Dövlət Sərhəd Xidməti | - | - | - | - | - | 1 |
| 35 | Dövlət Miqrasiya Xidməti | 30 | 30 | - | - | - | 1 |
| 36 | Dövlət Baytarlıq Xidməti | - | 12 | 12 | | - | 1 |
| 37 | Müəllif Hüquqları Agentliyi | 3 | 3 | - | - | - | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 1 | 1 | - | - | - | 1 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 13 | 13 | - | - | - | 1 |
| 40 | Azərsu ASC | 17 | 17 | - | 34 | - | 1 |
| 41 | Bakıelektrikşəbəkə | - | - | - | - | - | 1 |
| 42 | Dövlət Neft Şirkəti | - | - | - | - | - | 1 |
| 43 | Dövlət Mülki Aviasiya Administrasiyası | 1 | 3 | 2 | - | - | 1 |
| 44 | Milli Depozit Mərkəzi | 7 | 7 | - | - | - | - |
| 45 | Tələbə qəbulu üzrə Dövlət Komissiyası | 20 | 20 | - | - | - | - |
| 46 | Yerli Bələdiyyələr üzrə | 61 | 62 | | | | |
| | **CƏMİ** | 3242 | 3695 | 153 | 37 | - | 32 |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## 01.01.2013 - 31.01.2013-cü il dövrü ərzində “Elektron hökumət” portalındakı elektron xidmətlərdən istifadə barədə məlumat

| № | Xidmət təchizatcısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Daxili İşlər Nazirliyi | 2 | 866 |
| 2 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 3 |
| 3 | Ədliyyə Nazirliyi | 3 | 1494 |
| 4 | Vergilər Nazirliyi | 9 | 674 |
| 5 | İqtisadi İnkişaf Nazirliyi | 9 | 7 |
| 6 | Sənaye və Energetika Nazirliyi | 6 | 4 |
| 7 | Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi | 5 | 679 |
| 8 | Kənd Təsərrufatı Nazirliyi | 15 | 42 |
| 9 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 15 | 3 |
| 10 | Təhsil Nazirliyi | 3 | 781 |
| 11 | Səhiyyə Nazirliyi | 7 | 270 |
| 12 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 26 | 4756 |
| 13 | Gənclər və İdman Nazirliyi | 4 | 4 |
| 14 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 12 | 44 |
| 15 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 4 |
| 16 | Qacqınların və Məcburi Kockunlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 28 |
| 17 | Dövlət Gömrük Komitəsi | 4 | 258 |
| 18 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 209 |
| 19 | Dövlət Statistika Komitəsi | 2 | 24 |
| 20 | Əmlak Məsələləri Dövlət Komitəsi | 3 | 142 |
| 21 | Dövlət Sosial Müdafiə Fondu | 7 | 1908 |
| 22 | Müəllif Hüquqları Agentliyi | 5 | 4 |
| 23 | Dövlət Dəniz Administrasiyası | 5 | 50 |
| 24 | Dövlət Sərhəd Xidməti | 2 | 4 |
| 25 | Milli Arxiv İdarəsi | 2 | 13 |
| 26 | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 1 | 79 |
| 27 | "AzərEnerji" ASC | 2 | 1 |
| 28 | "AzərSu" ASC | 2 | 117 |
| 29 | "Meliorasiya və su təsərrüfatı” ASC | 2 | 10 |
| 30 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 2 |
| | CƏMİ | 159 | 12438 |

*Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş e-xidmətlər üzrə hal-hazırda "E-xidmətlər portalı"nda yerləşdirilmiş e-xidmətlərin sayı və portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı barədə

## MƏLUMAT

31.01.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən E-gov.az portalında olan e-xidmətlərin sayı | E-xidmətlər portalında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olan e-xidmətlərin ümumi sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 3 | 3 | 9 | 7 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 4 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 6 | 8 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 2 | 9 | 47 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Mudafiəsi Nazirliyi | 12 | 2 | 5 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 11 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 15 | 15 | 20 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 4 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 15 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 7 | 7 | 10 | 9 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 12 | 26 | 26 | 12 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 0 | 0 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 2 | 0 | 0 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 4 | 11 | 12 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 1 | 4 | 9 | 5 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 13 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 8 | 3 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 4 | 1 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 2 | 2 | 4 | 4 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 0 | 0 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 0 | 0 | 14 | 9 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 7 | 7 | 11 | 10 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 1 | 1 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 2 | 3 | 13 | 10 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 6 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 4 | 5 | 0 | 0 |
| 40 | Milli Arxiv Idarəsi | 2 | 2 | 2 | 0 | 0 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | 2 | - | - |
| | **CƏMİ:** | **419** | **122** | **176** | **348** | **275** |

# C2G "E-GOV" ELEKTRON HÖKUMƏT PORTALININ VACİBLİYİ HAQQINDA

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq demək olar ki, şəffaflığı daha da inkişaf etdirən amillərdən biri də cəmiyyətdə "Elektron hökumət"in formalaşdırılması hesab edilir. Son illər müasir informasiya texnologiyalarından istifadə etməklə, ölkəmizdə "Elektron hökumət"in yaradılması üzrə irimiqyaslı işlər aparılmışdır.

Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə e-xidmətlərin göstərilməsi məqsədilə "www.e-gov.az" Elektron Hökumət Portalı yaradılıb və 2012-ci ilin aprel ayından istifadəyə verilmişdir. Yaradılan yeni imkanların əsas məqsədi dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflığı təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğu vacib amillərdəndir. Beynəlxalq təcrübəyə əsaslanaraq, vətəndaşların dövlət orqanları ilə təmaslarının daha rahat və münasib şəkildə təşkili üçün dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin vahid məkanda "www.e-gov.az" portalında cəmləşdirilmişdir. "Bir pəncərə" prinsipi əsasında yaradılmış portal vasitəsilə hər bir istifadəçi dövlət qurumları tərəfindən təqdim olunan e-xidmətlərdən yararlana bilər.

Bildiyimiz kimi, hər bir dövlət qurumu İnternet şəbəkəsi üzərindən öz saytları vasitəsilə vətəndaşlara müxtəlif e-xidmətlər təklif edirlər. Bəs nə üçün həmin xidmətlərin bir portal vasitəsilə vətəndaşlara təqdim edilməsi məsələsi aktualdır və bütün ölkələrdə gündəmdədir? Bu sualın cavabı çox sadədir:

- ☒ Portala daxil olmaq üçün vahid identifikasiya vasitələrindən istifadə olunur. Belə ki, portal vasitəsilə müxtəlif dövlət qurumlarının e-xidmətləri "bir pəncərə" prinsipi əsasında cəmləşmiş şəkildə təqdim edildiyi üçün, onların vaxt itkisini minimuma endirir.

- ☒ Bir sorğu əsasında müxtəlif sayda informasiya sistemlərinə bağlanaraq müxtəlif arayışların əldə edilməsi. Qurumların saytlarından fərqli olaraq, bəzi hallarda istifadəçinin sorğusuna cavab bir neçə qurum tərəfindən təqdim olunan məlumatlar əsasında formalaşdıqdan sonra kompleks e-xidmət şəklində vətəndaşa təqdim edilir.

- ☒ Portalda istənilən sorğu və onun cavablandırılması portal tərəfindən arxivləşdirilir. Saytlarda vətəndaş birbaşa maraqlı tərəfə müraciət edir və cavablandırmada subyektiv faktorlardan sığortaolunma yoxdur. Portal dövlət qurumu və vətəndaş arasında, sonuncunun hüquqlarını qoruyan vasitəçi rolunda çıxış edir. Mübahisəli məqamlarda Portalın arxivi məhkəmədə sübut kimi istifadə oluna bilinər. Eyni zamanda Portalın qeydiyyat sistemi hökumətin nəzarət edici orqanlarına müraciətlərə baxılması mexanizmini qurmağa kömək edəcəkdir.

- ☒ İnformasiya mübadiləsinin vahid təhlükəsizlik sisteminin olması. İstifadə olunan arxitektura müxtəlif dövlət orqanlarının informasiya resurslarına sanksiyalaşdırılmamış daxil olmanın qabağını alır.

- ☒ Vahid dizayn və tərtibat formaları, vahid istifadə forması tətbiq olunur. Vətəndaşları maraqlandıran məlumatlar dövlət qurumlarının saytlarında fərqli şəkildə və məzmunda təqdim edildiyi halda, "Elektron hökumət" portalında bütün e-xidmətlər standart dizayn və vahid istifadəetmə qaydaları üzrə təqdim edilir.

- ☒ Müxtəlif tipli arayışların, sənədlərin hazırlanması üçün müxtəlif qurumlar tərəfindən vətəndaşların fərdi məlumatlarına müraciət olunacaq (gələcəkdə). Bu xidmətlər də loglaşdırılacaq. Nəticə etibarı ilə vətəndaş onun haqqında hər hansı məlumata hansı qurum tərəfindən hansı məqsədlə baxıldığını müşahidə edə biləcək. Vətəndaşın bu hallara aydınlıq gətirilməsi üçün müvafiq quruma sorğu vermək imkanı da olacaqdır.

- ☒ Təqdim olunan məlumatların səhihliyi və təsdiqi. Müxtəlif informasiya resursları arasında məlumat mübadiləsi hər bir qurumlar tərəfindən elektron imza ilə möhürlənir. Son məlumat e-gov.az vasitəsilə çatdırıldığından Elektron Hökumət Portalı məlumatların dəyişdirilmədiyinə zəmanət verir.

Ümumilikdə, portal vasitəsilə istifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin standart dizaynla təqdim edilməsi, optimallaşdırılması, yerinə yetirilmə prosedurlarının sadələşdirilməsi, istifadəetmə qaydalarının ümumiləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi və əldə edilən məlumatların həqiqiliyi, tamlığı, etibarlılığı, sərbəst əldə olunmasının təmin edilməsi vacib şərtlərdəndir. Gələcəkdə dövlət idarəçiliyində və yerli özünüidarəetmə orqanlarında da müasir texnologiyaların tətbiqinin genişləndirilməsi, təqdim olunan e-xidmətlərin istifadəetmə qaydalarının sadələşdirilməsi "e-gov.az" portalı qarşısında duran əsas məsələlərdəndir.

www.e-gov.az

**Facebook sosial şəbəkəsindəki səhifəmizdə paylaşdığımız materilallara istifadəçi rəy və münasibətlərindən bəzilərini diqqətinizə çatdırırıq.**

**Burada istifadəçilər bu və ya digər materila münasibət bildirərək öz təkliflərini də veriblər.**

Elektron Hökumət (e-gov.az)

http://www.facebook.com/egov.az

Ferid Quliyev  Salam herbi xidmete cagirish bildirish vereqe ve.s bu haqqinda melumat almag mumkundu??? yash heddi varmi???

Rufat Safaraliyev  Salam, necəsiz? Sualım var sizə..Sizin portaldan şəxsiyyət vəsiqəsi və xarici pasport üçün sənədləri elektron şəkildə doldurmaq olarmı? Yəni mən pasport stola getmədən evdə internet vasitəsilə doldura bilərəmmi?

Qafur Ağbabalı siz qarantiya verirsiniz ki burda shexsi melumatlari daxil eden adamlarin tehlukesizliyi qorunacaq. xakerler terefinden seyfe daqidlmayacaq? bashkalarinin eline kecmeyecen camahatain shexsi melumati danilari

Ilkin Jamalli Salam, Zəhmət olmasa deyin görək mən hansı tarixdən etibarən evdə oturaraq yəni notarial şöbəyə getmədən atama və ya qardaşıma etibarnamə verə bilərəm. (Fərz eliyək ki mənim e-kartım, sertifikatəm və s. varımdı )?

Руслан Рязанцев  Создайте клиент под MeeGo Harmatan.

Asaf Jabbarov  Bu sıstem Turkıyedekı E dovlet sıstemyle aynımı? Bunu mene Emaılıme yaza bılrsız? Bunu aldıgımız zaman hakkımızdakı herseyı oyrene bılırık? Buna geyd oldugumuzda Hakkımızdakı herseyı oyrene bılırık?

Isa Shirinov  Salam. Sizin e-hokumet xidmetinden immiqrant statusu olan xarici vetendaslar da istifade ede bilermi?

Huseynov Hesen  Mənim şəxsiyyət vəsiqəsindən əlavə olaraq 1 mobil nömrəm yox 3 nömrəm var. Ancaq məlumatları yoxla düyməsini sıxandan sonra qeydiyyatınıza icaze verilmir yazılır. Özümdə Şəki şəhərindəyəm. Bakıya gələ bilmirəm. Mən nəyə görə qanuni hüququmdam istifadə edə bilməyim...?

Gu Nel  Salam,men problemimi internet vasitesile size unvanlamaq ucun e-imza sertifikati almaliyam? bunun ucun 30manat odemeliyem? yoxsa sadece ehdis-group@rabita.az-bu unvana yazmaliyam? xais edirem bu barede yazasiniz, cox sag olun

Истинавино Свой reklam var. lakin portalin 80% çalişmir! Ədliyyə, arxiv - sifr! Mənə saytdaki məntiq çatmır. Misal üçün http://mia.gov.az/?/az/driverlicense ünvanı Sizin http://bit.ly/WR10Xr ünvanındakı servisi parolsuz, kodsuzç daxilolmasız təqdim edir  Sizin sayt isə bunu mürəkkəbləşdirərək guya yeni bir xidmət kimi qələmə verir. Belə misallar çox gətirmək olar. Bu kodların qoyulmağın mənası nədir axı?

Memmed Quliyev  ...Mən hərbiçiyəm xəstəliklə ehtiyyata buraxılmişam. Mənə qanunla təyin olunmuş sığorta (ilkin) pulunu haradan, kimdən, necə ala bilərəm. Cünki bizi hərbiciləri hansı şirkət vəya nazirlik sığorta edir. Güya belə deyirlər ki, 2500 manat sığorta verilməlidir. Kim verməlidir onu bilmək istəyirəm. Əvvəlcədən Sizə öz minnətdarlığımı bidirirəm.

*E-gov.az: şərhlər üslub və qramatik səhvlərə toxunulmadan, olduğu kimi təqdim olunur.*

**7,523** find us on facebook

## Sosial şəbəkələrdə

Ogtay Khudaverdiev Salam menim size sualim olacaqdi
Elektron xidmet vasitesi ile ev telefonuna gelen zenglere baxmaq umkundur?

Rahim N. Aliyev ... torpaq sahəsi üçün kadastr planının alınması və dövlət reyestrindən çıxarış əldə etmək üçün aidiyyatı orqanlara dəfələrlə müraciət etmişəm. Hər dəfə hansısa məmurun "diqqətsizliyi" və ya səhvi ucbatından sənədlərdə yalnışlıq bəhanəsiylə imtinalar almışam. Bu məqsədlə dəfələrlə işdən icazələr almaq məcburiyyətində qalıram. Bu xidmətlərin e-xidmət kimi portal uzərindən təşkili menim kimi uzun sıralarda növbə gözləyən çoxsaylı vətəndaşları bu qədər vaxt itkisi və süründürməçiliklərdən qurtarardı...

Ilknur Novruzsoy salam.bu portal mene bowanma ile bagli komeklik ede biler mi? men rusiyanin saratov seherinde yawayan azerbaycanliyam.ve burada cox zulum gorurem. mene bowanmaqla bagli nese komekliyiniz deye bilermi? ...menim burada cixmaq, harasa getmek kimi imkanim yoxdu. hemde dil bilmirem. men yanvar ayinin axirinda vetene qayidacam. mene lazim olan mehkemeye veredceyim erize numunesidir. xahiw edirem tapin.

Улкер Агаева salam men bilmek isterdim ki siz huquqi bir xidmet gosterirsiz yoxsa butun senedlesme islerini de heyata kecire bilirsiz? saqolun

Асб Багирова Salam. Hüquqi şəxsin elektron imza alması üçün hansi sənədlər tələb olunur və internet vasitəsi ilə ərizə yazıb, müqavilə bağlamaq mümkündürmü?

Raiq Aliyev https://reg.ehdis.az/ - vasitəsilə qeydiyyatdan keçmək istəyirəm, Sosial sığorta şəhadətnaməsinin nömrəsi səhvdir mesajı ilə qarşılaşıram. Lazımdısa sığorta şəhadətnaməsinin scan versiyasını da göndərə bilərəm ki, səhv deyil. Bu barədə nəsə məlumat varmı?

Улкер Агаева ...men usagimin adini deyismek isteyirem, hami deyir mumkun deyil ancaq 16 yasinda. usagin 2 yasi olacaq. bu isde ne sened yigmaq lazimdir? komek ede bilersiz

Руслан Рязанцев Mende adı e-imza var. Mobil imzanı harada elde elemek olar? Nokia N9 üçün kliyent elemeye xahiş edirem.

**Qaryagdi Nagiyev**
q.nagiyev@mail.ru
Wednesday, January 16, 2013 6:19 PM

Salam. Mən bilmək istəyirəm ki, bizə verilən bu kod və paroldan ("Elektron Hökumət" sistemi tərəfindən vətəndaşlara verilmiş kodu nəzərdə tuturam) istifadə edərkən adımda olan telefon nömrəsini başqa nömrəyə dəyişə bilərəm? Bir neçə dəfə cəhd etmişəm, amma alınmayıb. Bəzi xidmətlərdən normal istifadə etmək olur, lakin konkret bu xidmət (nömrənin dəyişdirilməsi) haqqında bilmək istəyirəm. Bir də ki, zəhmət olmasa rüsumu haqqında məlumat verərdiniz, nömrədəki rəqəmlərin ardıllıcığına görə rüsumda fərq edir? Ümumiyyətlə nömrəni dəyişərkən seçim imkanı Sağ olun, öncədən təşəkkürlərimi bildirirəm.

*E-gov.az: şərhlər üslub və qramatik səhvlərə toxunulmadan, olduğu kimi təqdim olunur.*

## STATİSTİKA

### 1 Portala daxil olan istifadəçilərin sayı

www.e-gov.az http://www.e-gov.az

% of visits: 100.00%

Overview

Jan 1, 2013 Jan 31, 2013




**25,113 people visited this site**

- **Visits: 34,365**
- **Unique Visitors: 25,113**
- **Pageviews: 97,155**
- **Pages / Visit: 2.83**
- **Avg. Visit Duration: 00:02:54**
- **Bounce Rate: 46.90%**
- **% New Visits: 69.71%**



**69.85% New Visitor**
24,005 Visits

**30.15% Returning Visitor**
10,360 Visits

### 2 Portalda qeydiyyatdan keçmiş istifadəçilərin sayı:

Ümumi aktiv qeydiyyat: **3098**

2013-cü il üçün aktiv qeydiyyat: **972**

© 2012 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az